# Regionların sosial-iqtisadi inkişafı iqtisadi siyasətimizin ana xəttidir

Müasir Azərbaycan dövlətinin qurucusu, iqtisadi və aqrar islahatların, özəlləşdirmə proqramlarının banisi ümummilli lider Heydər Əliyevin zamanında görülən misilsiz işlər ölkəmizdə sosial-iqtisadi inkişafın təməlini qoymuş və gələcək geniş perspektivlər üçün möhkəm təməl, zəmin hazırlamışdır. Amma Heydər Əliyev dönəmində dövlətimiz gənc, təcrübəsiz və iqtisadi cəhətdən hələ zəif olduğu üçün zamana ehtiyacı olan bu nəhəng işləri axıra çatdırmaq, təbii, mümkün deyildi. Azərbaycanın, xüsusən də bölgələrin sosial-iqtisadi cəhətdən inkişafına nail olmaq missiyası ulu öndərin siyasi varisi, Azərbaycan Prezidenti cənab İlham Əliyevin üzərinə düşdü və o, bu tarixi, şərəfli vəzifənin öhdəsindən bacarıqla, uğurla gəldi. Bölgələrimizin yüksək sosial-iqtisadi inkişafının ideya müəllifi, onun həyata keçirilməsinə hərtərəfli, mütəmadi dəstək verən, bu proqramları təşviq edən məhz dövlət başçısı cənab İlham Əliyevdir və buna alternativ fikir söyləmək əsla mümkün deyil.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 11 fevral 2004-cü il tarixli fərmanı ilə təsdiq edilən "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)" bu strategiyanın uğurlu təməlini qoydu. Proqramın giriş hissəsində göstərilirdi ki, həyata keçirilən siyasət çox qısa bir zaman ərzində iqtisadiyyatda əsaslı keyfiyyət dəyişikliklərinə səbəb olub: inflyasiya cilovlanmış, büdcə kəsiri ümumdaxili məhsulun 1-2 faizi səviyyəsinə endirilmiş, 1997-ci ildən etibarən isə dinamik iqtisadi inkişafı təmin etmək mümkün olmuşdur.

Ölkədə aparılan ardıcıl sistemli iqtisadi islahatların mühüm nəticələrindən biri dövlət mülkiyyətinin özəlləşdirilməsi və azad sahibkarlığın inkişafı üçün əlverişli şəraitin yaradılması yolu ilə iqtisadiyyatı inkişaf etdirmək və əhalinin güzəranını yaxşılaşdırmaq olmuşdur. Belə ki, ölkədə aqrar islahatlar həyata keçirilərək 1390 min hektardan çox torpaq sahəsi əvəzsiz olaraq kəndlilərə paylanmışdır.

Sonralar şifahi nitqdə "birinci Dövlət Proqramı" kimi formalaşacaq həmin Proqramda göstərilirdi ki, sahibkarlığın inkişafı ilə əlaqədar görülən işlər nəticəsində ümumi daxili məhsulda qeyri-dövlət sektorunun xüsusi çəkisi 1995-ci ildəki 30 faizdən 2003-cü ildə 73 faizə çatmışdır. Həmin dövrdə orta aylıq əmək haqqı və pensiyaların məbləği 6 dəfədən çox artmış, ölkədə həyat səviyyəsi əhəmiyyətli dərəcədə yüksəlmişdir.

Amma bütün bunlarla yanaşı, ölkənin sosial-iqtisadi həyatında həllini gözləyən problemlər çox idi və regionların inkişafını təmin etmədən onların həyata keçirilməsi mümkün deyildi. Azərbaycanın sənaye potensialının və bununla bağlı infrastruktur obyektlərin əksəriyyətinin Bakıda yerləşməsi, eyni zamanda regionlardakı müəssisələrin, xidmət və istehsal obyektlərinin fəaliyyətinin zəifləməsi (və ya dayanması) əhalinin paytaxta axınına səbəb oldu. Bu isə regionlarda sosial-iqtisadi inkişafı zəiflədir, bölgələrlə paytaxt arasında fərqləri gücləndirir, demoqrafik və ekoloji vəziyyətə mənfi təsir göstərirdi.

"Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda 2004-2008-ci illərdə ayrı-ayrı rayonlarda iqtisadiyyatın inkişafını sürətləndirən amillər, bununla bağlı dövlət siyasətinin əsas istiqamətləri öz əksini tapmışdı.

Dövlət başçısı cənab İlham Əliyevin səyi və ardıcıl dəstəyi nəticəsində birinci Dövlət Proqramı vaxtında və uğurla həyata keçirildi. Azərbaycan bölgələrinin sosial-iqtisadi inkişafında olduqca mühüm mərhələyə qədəm qoyuldu. Məhz bu mərhələdə qeyri-neft sektorunun davamlı, regionların tarazlı inkişafı təmin olundu, bölgələrdə kommunal, xidmət və sosial infrastruktur təminatı yaxşılaşdırıldı, yeni iş yerlərinin yaradılması, müəssisələrin açılması nəticəsində əhalinin məşğulluq və həyat səviyyəsi artdı.

Ölkədə yaranmış əlverişli iqtisadi mühitə və siyasi dəstəyə söykənərək sosial-iqtisadi inkişaf sahəsində bağlanmış bu tədbirləri davam etdirmək lazım idi. "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" bu zərurətdən irəli gəldi. Şifahi nitqdə "II Dövlət Proqramı" adlandırdığımız bu Proqramın uğurla həyata keçirilməsi nəticəsində ölkədə makroiqtisadi göstəricilərdə yüksək artım əldə edildi, əhalinin həyat səviyyəsi əvvəlki illərə nisbətən daha da yüksəldi. Əlbəttə ki, dövlət başçısının şəxsi səyi, dəstəyi və nəzarəti nəticəsində. Təkcə bunu demək kifayətdir ki, iki Dövlət Proqramının icrası ilə əlaqədar 10 il ərzində Prezident bölgələrin sosial-iqtisadi inkişafının sürətləndirilməsini təmin edən 240 sərəncam imzaladı.

İkinci Dövlət Proqramı başa çatdıqda ölkənin ümumi daxili məhsulu son 10 ildə 3,2 dəfə, adambaşına ÜDM-in həcmi 2,8 dəfə, qeyri-neft sektoru 2,6 dəfə artmış və Azərbaycanın orta illik iqtisadi artımı 13 faizə yaxınlaşmışdı. Göstərilən dövrdə ölkənin valyuta ehtiyatları 31 dəfə, xarici ticarət dövriyyəsi 6,6 dəfə, ixrac 9,3 dəfə, qeyri-neft ixracı 4,7 dəfə artdı. Ölkəmizin iqtisadiyyatı "Qlobal Rəqabət Qabiliyyəti İndeksi 2013-2014" hesabatına əsasən, rəqabət qabiliyyətinə görə dünyada 39-cu, MDB məkanında isə 1-ci oldu. Azərbaycan dünyada "yüksək insan inkişafı" ölkələr sırasına daxil olaraq Qafqazda investisiya reytinqinə malik yeganə dövlət kimi tanınmağa başlandı.

Göstərilən dövrdə bölgələrin sosial-iqtisadi inkişafından danışarkən Heydər Əliyev Fondunun, Fondun prezidenti, ölkənin birinci xanımı Mehriban Əliyevanın təhsil, səhiyyə, mədəniyyət sahəsində gördüyü misilsiz işləri qeyd etməmək ədalətsizlik olardı. Həmin dövrdə ölkədə tikilən və ya əsaslı təmir olunan 3 minə yaxın məktəbin, 500-dən çox səhiyyə müəssisəsinin, 41 olimpiya idman kompleksinin həyata vəsiqə almasında, insanların istifadəsinə verilməsində Heydər Əliyev Fondunun misilsiz xidmətləri olmuşdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 27 fevral 2014-cü il tarixli Fərmanı ilə təsdiq olunan "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" bölgələrin, bütövlükdə isə ölkənin iqtisadi inkişafında mühüm mərhələ olmuşdur. Proqramın əsas məqsədi göstərilən dövrdə ölkədə qeyri-neft sektorunun inkişafı, iqtisadiyyatın diversifikasiyası, regionların sürətli inkişafı tədbirlərini davam etdirməkdən, kəndlərin və bölgələrlə bağlı infrastrukturların, eləcə də sosial sahələrin inkişafına töhfə verməkdir.

Şifahi nitqdə "III Dövlət Proqramı" adlandırılan bu Proqramın uğurla həyata keçirilməsi üçün möhkəm təməl, bünövrə yaradılmışdır. Odur ki, işlər uğurla getdi. Ötən il yanvarın 27-də Heydər Əliyev Mərkəzində "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının birinci ilinin yekunlarına həsr olunan konfransda dövlət başçısı cənab İlham Əliyev demişdir:

**"2004-cü ilə nəzər salsaq görərik ki, son 11 il ərzində Azərbaycan dünya miqyasında iqtisadi və sosial baxımdan ən sürətlə inkişaf edən ölkə olmuşdur. Bütün göstəricilər bunu təsdiq edir. Sadəcə olaraq bəzi rəqəmləri qeyd etmək istərdim. 2004-cü ildən bu günə qədər ümumi daxili məhsulumuz 3,4 dəfə artmışdır. Bu, dünya miqyasında rekord göstəricidir. Sənaye istehsalı 2,7 dəfə artmışdır. On bir il ərzində ölkə iqtisadiyyatına 180 milyard dollar investisiya qoyulmuşdur. 2004-cü ildə bizim valyuta ehtiyatlarımız 1,8 milyard dollar idisə, bu gün 50 milyard dollardan çoxdur. Görün biz nə qədər ehtiyat yığmışıq".**

Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2015-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında da bu məsələ dövlət başçısının diqqətində olub:

**"Regionların inkişafı 2015-ci ildə sürətlə getmişdir. Mən dəfələrlə bölgələrdə olmuşam. Vəziyyətlə tanış olurdum, görürdüm ki, hər bir yerdə inkişaf, tərəqqi var, yeni sənaye müəssisələri açılır. Yüz mindən çox yeni iş yerləri açılmışdır ki, onlardan 84 mini daimi iş yeridir".**

Dövlət başçısı cənab İlham Əliyev həmin iclasdakı yekun nitqində regionların sosial-iqtisadi inkişafı məsələlərinə bir daha qayıdaraq demişdir:

**"Sənaye istehsalı istiqamətində çox ciddi iş aparılmalıdır. Texnoparklar, sənaye klasterləri yaradılmalıdır. Bütün regionlarda sənaye zonaları yaradılmalıdır. Bu məsələ ilə bağlı mən əvvəlki müşavirələrdə də öz fikirlərimi bildirmişdim. İstəyirəm bu istiqamətdə işlər daha da sürətlə getsin ki, biz artıq nəticələri görək".**

III Dövlət Proqramının icrası və uğurla başa çatdırılması dövlət başçısının həmişə diqqət mərkəzindədir. Bu il yanvarın 26-da "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının ikinci ilinin yekunlarına həsr olunan konfransda, həmişəki kimi, dövlət başçısı məsələni nəzarətdə saxlayaraq ətraflı təhlil edib. Aidiyyəti dövlət qurumlarının rəhbərləri Proqramın icrası ilə bağlı Prezidentə ətraflı məlumat veriblər.

Dövlət başçısı konfransda deyib ki, bu gün biz "Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasını müzakirə edəcəyik. Üçüncü Proqram 2014-cü ildə qəbul edilmişdir, uğurla icra olunur. Hər il biz bu Proqramın icrasını müzakirə edirik. Gələcək fəaliyyət üçün istiqamətlər müəyyən edilir. Bir sözlə, bu Proqramın icrası çox uğurlu addımımızdır və 2004-cü ildə birinci Proqram qəbul olunanda məsələ elə qoyulmuşdur ki, Azərbaycanın regionları sürətlə inkişaf etməlidir. Regionlarda infrastruktur layihələri, iş yerləri, sosial müəssisələr yaradılmalıdır ki, ölkəmizin inkişafı hərtərəfli və dayanıqlı olsun.

Ölkə Prezidentinə Proqramla bağlı görülən işlər barədə məlumat verən iqtisadiyyat naziri Şahin Mustafayev deyib ki, hesabat ilində regionlarda infrastruktur layihələrinin icrası, o cümlədən yolnəqliyyat, elektrik, qaz və su təchizatı infrastrukturunun yenilənməsi işləri davam etdirilib.

İl ərzində 400 kilometrdən artıq ölkə və yerli əhəmiyyətli avtomobil yolu, 12 yeni körpü və yolötürücüləri tikilib və ya təmir olunub. Tapşırığınıza əsasən kənd yollarının tikintisi davam etdirilib, əhalisi 351 min nəfər olan 245 yaşayış məntəqəsini birləşdirən 590 kilometrdən artıq kənd yolu çəkilib.

Ötən il regionlarda 2 elektrik stansiyası istifadəyə verilib, 1289 transformator və 20 yarımstansiya quraşdırılıb və ya təmir olunub, 8200 kilometrdən artıq elektrik və 12500 kilometrə yaxın qaz xətləri çəkilib, 43 rayon üzrə 430 yaşayış məntəqəsi təbii qazla təmin edilib, qazlaşdırma səviyyəsi 90 faizə, o cümlədən regionlar üzrə 80 faizə çatıb.

Su təchizatının yaxşılaşdırılması işləri davam etdirilib, əhalisi 175 min nəfər olan 4 şəhərdə su təchizatı layihəsi başa çatıb, regionlarda 750 kilometr su, 391 kilometr kanalizasiya xətti çəkilib, 125 minə yaxın əhalisi olan 58 yaşayış məntəqəsində modul tipli təmizləyici qurğular quraşdırılıb, əhalisi 630 min nəfərə yaxın olan 34 şəhər və rayonun 241 yaşayış məntəqəsində 300 subartezian quyusu qazılıb.

Cənab İlham Əliyev konfransdakı yekun nitqində texnoparkların yaradılması, sement istehsalı, ərzaq təhlükəsizliyi, bitkiçilik, heyvandarlıq, çayçılıq, kartof, yumurta, duz, bitki yağları, ət və süd məhsulları istehsalının artırılması və başqa sahələr üzərində geniş dayanaraq qarşıya konkret vəzifələr qoyub. Dövlət başçısı nitqini belə tamamlayıb: **"Mən əminəm ki, Azərbaycan 2016-cı ildə və bundan sonrakı illərdə də uğurla inkişaf edəcəkdir. Biz müstəqillik yolu ilə, inkişaf yolu ilə gedirik. Bu yolda sizə və bütün Azərbaycan xalqına uğurlar arzulayıram".**

Göründüyü kimi, "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrası dünyada hökm sürən böhranlara və iqtisadi geriliyə baxmayaraq, ölkəmizdə dövlət başçısı cənab İlham Əliyevin ardıcıl diqqət və qayğısı sayəsində uğurla davam etdirilir və şübhə yoxdur ki, Azərbaycanın, xüsusilə də bölgələrin inkişafında, əhalinin həyat səviyyəsinin daha da yaxşılaşdırılmasında müstəsna rol oynayacaqdır.

**Nəriman CAVADOV,**
**"Respublika".**

*"Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim etmək üçün".*